# Ankarada Dünya Türk Dili Ailəsi Günü münasibətilə panel müzakirələr keçirilib

AZƏRTAC xəbər verir ki, tədbir Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, UNESCO və Atatürk Mədəniyyət, Dil və Tarix üzrə Ali Şuranın dəstəyi ilə Türk Dilçilik Cəmiyyəti tərəfindən təşkil edilib.

Türk Dilçilik Cəmiyyətinin sədri, professor Osman Mert çıxışında türk xalqlarının kimliyinin təməli kimi dilə hörmətlə yanaşmağın əhəmiyyətini vurğulayıb, Türk Dövlətləri Təşkilatı məkanında dil sahəsində sıx əməkdaşlığın vacibliyini qeyd edib.

UNESCO yanında Türkiyə Milli Komissiyasının rəhbəri, professor Ocan Oğuz UNESCO-nun Səmərqənddə keçirilmiş iclasının gündəliyinə Dünya Türk Dili Ailəsi Gününün elan edilməsi ilə bağlı qərarın salınmasına töhfə verən işlərdən danışıb.

Atatürk Mədəniyyət, Dil və Tarix üzrə Ali Şuranın rəhbəri, professor Derya Örs mədəniyyət və dilin dövlətin "yumşaq gücünün" vacib komponentləri olduğunu qeyd edib.

"Dilə nə qədər çox hörmət edilərsə, xalq və dövlət bir o qədər hörmətli olar. Türk dillərinin gənclər arasında təbliği bu gün xüsusilə vacibdir", - deyə Derya Örs ortaq türk əlifbasının qəbul edilməsinin zəruriliyini bildirib.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam Prezident Rəcəb Tayyib Ərdoğanın mədəniyyət sahəsi də daxil olmaqla, türk dövlətlərinin inteqrasiyasına töhfəsini vurğulayıb. Nazir müavini türk dövlətləri arasında mədəniyyətlərarası əlaqələrin daha da möhkəmlənəcəyinə əminliyini bildirib.

Tədbir panel müzakirələri ilə davam etdirilib.

Azərbaycan. - 2025.- 16 dekabr (№ 264).- S.3.